https://doi.org/10.59849/3006-1342.2024.1.119
UOT 165

*Y.R.Abdulla, S.E.Əliyeva, M.F.Məmmədova*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*Bakı ş., Lermontov küç., 74*
*E-mail: abdul-3@gmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİ: QANUNYARADICI VƏ HÜQUQ TƏTBİQEDİCİ PRAKTİKADA KONSTİTUSİON ZİDDİYYƏTLƏR

*Məqalə qanunyaradıcı və hüquq tətbiqedici praktikada ziddiyyətli məqamları Konstitusiya Məhkəməsi aspektində qiymətləndirmə istiqamətindədir. Həmçinin onun yaradılmasını zəruri edən şərtlər, bununla bağlı nəzəriyyələr və onların müasir dövrdə əsaslandırılması, fəaliyyətinin əhəmiyyətindən də bəhs edilir. Əsas olaraq, burada onun aid olduğu hakimiyyət qolu ilə səlahiyyətlərinin xarakterinin ziddiyyəti məsələsi, qanunvericilikdə onun üçün müəyyən olunmuş hüquqi statusun uyğun olub-olmaması, funksiyasının digər hakimiyyət orqanlarının yerinə yetirdiyi funksiyalarla toqquşma məqamlarından bəhs edilir. Bu məsələlərlə bağlı xarici dövlətlərin təcrübəsinə də müraciət edilərək müqayisəli təhlil aparılmış və bu məsələ müasir dövrün tələblərinə uyğun olaraq qiymətləndirilmişdir. Son olaraq effektiv hesab edilən tövsiyələr məqalənin nəticə hissəsində öz əksini tapmışdır.*

*Açar sözlər:* Konstitusiya Məhkəməsi, hüquq, ziddiyyət, qanunvericilik

## *Giriş*

Demokratikləşmə şəraitində cəmiyyətin inkişafını təmin edən bəşəri qanunauyğunluqları dərk etmək, bu mövqeyi nəzərdən beynəlxalq norma və prinsiplərlə yanaşı milli dəyərlərin öyrənilməsi, qiymətləndirilməsi, həmçinin bu münasibətlərin qarşılıqlı uzlaşması, demokratik dəyərlərə əsasən dövlətin idarəetmə metodlarının mənimsənilməsi və fəaliyyətə tətbiqi insan cəmiyyətinin ən vacib elementlərindən biridir. Dövlətin idarə olunmasında hüquqi dövlətin əsaslandığı mühüm prinsiplərdən biri "hakimiyyətin bölünməsi" prinsipidir, çünki hakimiyyətin mahiyyəti məhz bu bölgü prinsipinin nə dərəcədə düzgün yerinə yetirilməsindən asılıdır. İlk növbədə, onu qeyd etmək lazımdır ki,hər bir hakimiyyət qolu müstəqil şəkildə, çəkindirmə və tarazlaşdırma mexanizmi əsasında öz funksiya və səlahiyyətlərini həyata keçirir. Bu vəhdət onların səlahiyyətləri bölgüsünü təmin cdir və hakimiyyətin balanslı idarəçiliyinin həyata keçirilməsinə şərait yaradır. C.Look vo L.Ş.Monteskye tərəfindən irəli sürülmüş hakimiyyətin bölgüsü ideyasının əsas müddəaları ondan ibarətdir ki, siyasi azadlığı təsdiq etmək, sosial qrup və ya ayrı-ayrı şəxslər tərəfindən hakimiyyətdən sui-istifadəni aradan qaldırmaq üçün dövlət hakimiyyətini qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölmək zəruridir.[1] C.Look hesab edirdi ki, əsas insan hüquqlarını təmin etmək məqsədi ilə siyasi hakimiyyəti məhdudlaşdırmaq və müəyyən çərçivəyə salmaq, icraedicilik hakimiyyəti qanunvericilik hakimiyyətindən ayrılmalı, qanunverənlərin özləri isə müəyyən etdikləri qanunlara tabe olmalıdırlar.[2] Lakin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin (bundan sonra AR Konstitusiya Məhkəməsi) mənsub olduğu hakimiyyətin qolu ilə onun səlahiyyətləri arasında ziddiyyətlər mövcuddur. Belə ki, AR Konstitusiya Məhkəməsi aid oğlduğu hakimiyyət qolu ilə yanaşı qanunverici hakimiyyətə

[1] Монтескье Ш.Л О духе законов. М.: Мысль, 1999., s. 289-298.
[2] Лоок Дж. Избранные философские произведения в двух томах. Т.2, М.: Наука, 1960., s. 83-84.

məxsus funksiyanın da bir qismini, yəni hüquqyaratma fəaliyyətini həyata keçirir. Bu isə qanunyaradıcı və hüquq tətbiqedici praktikada ziddiyyətlərin yaranması ilə nəticələnir.

## I. Məhkəmə hakimiyyəti

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlətə xas olan məhkəmə hakimiyyətinin bünövrəsini qoymuş və onun inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan Respublikasında həyata keçirilən konstitusiya islahatlarının əsas məqsədlərindən biri də səmərəli şəkildə təşkil olunan və fəaliyyət göstərən hakimiyyət mexanizminin yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Dövlətçilik təcrübəsində sınaqdan çıxan və bir çox inkişaf etmiş ölkələrin hüquq sistemində öz əksini tapmış hüquqi dövlət üçün səciyyəvi olan hakimiyyətin bölünməsi prinsipi həmin mexanizmin bünövrəsini təşkil edir. Bu prinsip səlahiyyəti dəqiq müəyyənləşdirilmiş və xüusi orqanlar tərəfindən həyata keçirilən müstəqil hakimiyyət qollarının – qanunverici, icra və məhkəmə hakimiyyətinin mövcudluğunu tələb edir.

Üçüncü hakimiyyət adlandırılan məhkəmə hakimiyyəti dövlətin əhəmiyyətli funksiyaları sırasında başlıca yerlərdən birini tutan ədalət mühakiməsini həyata keçirir. Onun sosial təyinatə və cəmiyyətdəki rolu məhz bununla müəyyənləşir. Bəzən məhkəmə hakimiyyəti dedikdə, səhvən ədalət mühakiməsi başa düşülür. “Məhkəmə hakimiyyəti” və “ədalət mühakiməsi” anlayışları məzmununa görə bir-birinə yaxındırlar, lakin eyni deyillər. Ədalət mühakiməsi məhkəmə hakimiyyətinin vacib, lakin vahid olmayan təzahür formasıdır. Məhkəmə hakimiyyəti isə bütövlükdə çox genişdir. Hakimiyyətin bu qolunun sosial rolunu fransız alimi Aleksis de Tokvil belə ifadə etmişdir: “ədalət mühakiməsinin müqəddəs məqsədi zorakılıq ideyasının hüquq ideyası ilə əvəz edilməsi, hökümət ilə onun istifadə etdiyi güc arasında hüquqi maneə yaradılmasından ibarətdir”.[3] Əlbəttə, nəzərə almaq lazımdır ki, məhkəmə hakimiyyəti digər hakimiyyət qolları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Belə ki, məhkəmələr qanunverici hakimiyyət tərəfindən qəbul edilmiş hüquqi aktları tətbiq edir və onların qərarları məhz bu aktlara əsaslanmalıdır. Eyni zamanda icra hakimiyyətinin məhkəmələrlə əlaqəli şəkildə fəaliyyət göstərməsi həm dövlət mexanizmində, həm də qanunvericilikdə öz əksini tapmışdır.

### A. Məhkəmə hakimiyyətinin dövlət hakimiyyətindəki rolu

Məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin budaqları sırasında öz səlahiyyətlərinə və fəaliyyətinin hüquqi formalarına görə digərlərindən ciddi şəkildə fərqlənir. Vaxtilə Ş.L.Monteskyö hakimləri ancaq qanun tətbiq edən orqan kimi qiymətləndirirdi. Müasir dövrdə roman-german hüquq sistemli ölkələr üçün bu, bəlkə də, keçərlidir, ancaq anglo-sakson hüquq sistemli ölkələr üçün bu müddəa özünü doğrultmur. Bu ölkələrdə məhkəmə sadəcə hüququ tətbiq etmir, özü hüquq yaradıcılığı ilə məşğul olur, hüququ tətbiq edərək sosial sistemə uyğunlaşdırır ki, bu da onun çəkisini artırır.

Məhkəmə hakimiyyəti dövlət hakimiyyət budağı olsa da, ənənəvi olaraq siyasi hakimiyyətdən aralanır. O, dövlət siyasətini formalaşdırmır, əksinə, siyasətdən təcrid edilir. Eyni zamanda ondan yeri gələndə siyasi təzyiq vasitəsi kimi də istifadə edirlər. Məhz bu hakimiyyət budağının fəaliyyəti əhalidə hüquq haqqında təsəvvürün formalaşmasında müstəsna rol oynayır. Heç bir hakimiyyət budağından onun qədər obyektiv olmaq tələb edilmir və heç bir hakimiyyət orqanı dövlətə münasibətdə onun qədər müstəqillik imkanına malik deyildir.[4] Həmçinin, qanunvericilik hakimiyyətindən fərqli olaraq, məhkəmə ümumi davranış qaydaları müəyyən etmir (məhkəmə presedenti müəyyən İstisna təşkil edir), icraedici-sərəncamverici fəaliyyətlə məşğul olmur. Lakin yuxarıda qeyd edilənlər

---

[3] Nizami Səfərov, *Konstitusiya və Məhkəmə Hakimiyyəti*, “Azərbaycan” qəzeti, s. 3. (23 may 1996)

[4] Ziyafət Əsgərov. Konstitusiya hüququ, s. 426 (Bakı, 2012)

məhkəmənin dövlət hakimiyyətinin digər budaqlarından tam ayrıldığını ifadə etmir. Qanunvericilik hakimiyyəti hakimlərin statusunu müəyyən edir, məhkəmə qanunları tətbiq edir, icra hakimiyyəti isə məhkəmə qərarlarını icra edir.

**B. Məhkəmə sisteminin modelləri.**

Beynəlxalq praktikada məhkəmə sistemlərinin dörd modelini fərqləndirmək olar:

1. **İngilis-amerikan modeli (anglosakson),**
2. **Roman-german modeli (qitə Avropa),**
3. **Sosialist model,**
4. **Müsəlman modeli.**

***Anglosakson modelində,*** adətən, başda ali məhkəmə olmaqla vahid məhkəmə sistemi mövcuddur (düzdür, Amerika Birləşmiş Ştatlarında ayrı-ayrılıqda federal məhkəmə sistemi və ştatların məhkəmə sistemi mövcuddur, lakin onlardan hər birinə bir orqan - federasiyanın və ya ştatın ali məhkəməsi başçılıq edir).[5] Anglosakson modelində məhkəmə presedentindən geniş istifadə olunur ki, bu da qanunvericiliyin rolunu bir qədər azaldır. Məhkəmə prosesində hakim passivdir. O, yalnız iclası aparır və cinayət işlərində təqsirlilik haqqında məsələni həll etmir, çünki hakimin və andlıların səlahiyyətləri bölünmüşdür (fakt məsələsini, yəni təqsirliliyi andlı iclasçılar[6] həll edirlər, hüquq məsələlərini, yəni cəzanın təyin edilməsini, mülki işlər üzrə məsuliyyət formasının müəyyən edilməsini hakim və ya hakimlər həll edirlər).

***Roman-german modelində***, adətən, vahid məhkəmə sistemi yoxdur və o, çoxsistemlidir. Müxtəlif ixtisaslaşmış məhkəmə sistemlərinin öz ali orqanlan vardır. Məsələn, Almaniyada federasiyanın beş ali məhkəməsi vardır, Braziliyada da bir neçə ali federal məhkəmə fəaliyyət göstərir. Bu sistemdə məhkəmələrin fəaliyyəti mükəmməl qanunvericilik əsasında həyata keçirilir və məhkəmə presedenti son dərəcə nadir hallarda tətbiq olunur; hakim prosesdə fəaldır, o, təkcə sübutlara qiymət vermir, həm də onları toplayır; "xalqın hakimləri" və ya "qeyri-peşəkar hakimlər" (assizlər, şeffenlər) hakimlərlə birlikdə cəza təyin olunmasında iştirak edirlər.

***Sosialist modeli*** üçün bütün hakimlərin və xalq iclasçılarının seçkili olması (onlar birlikdə faktlara qiymət verir, hökm çıxarır, mülki işlər üzrə qətnamə qəbul edirlər), hakimlərin və xalq iclasçılarının hüquqlarının bərabərliyi, həmçinin, inzibati ərazi vahidləri və məhkəmə dairələrinin sərhədlərinin üst-üstə düşməsi xarakterikdir. Yerli sovet tərəfindən seçilmiş məhkəmə müvafiq ərazidə fəaliyyət göstərir. Həmin ərazi hüdudlarında kommunist (hakim) partiyasının müvafiq orqanı da fəaliyyət göstərir. Totalitar sosializm ölkələrinin təcrübəsində bu partiyaların rəhbər rolu haqqında müddəa məhkəmələrə də şamil edilir.

***Müsəlman modelində*** isə yalnız müsəlmanların və ya belə məhkəməyə razı olan şəxslərin işlərinə baxılır, proses həm mülki hüquqda, həm də cinayət hüququnda səciyyəvi məsuliyyət formaları ilə şəriət ehkamları əsasında həyata keçirilir. Bəzi müsəlman ölkələrində məhkəmə qərarlarından şikayət verilməsi qaydası mövcud deyildir və yalnız imama, yəni ali ruhani şəxsə müraciət etmək olar. Ali ruhani şəxs (imam), adətən, əvəzçilik üzrə monarxın özü olur. Lakin bəzi ölkələrdə, məsələn, Nigeriyada yuxarı müsəlman məhkəmələri də mövcuddur.

Ümumilikdə isə son dərəcə kiçik dövlətlər (məsələn, əhalisinin sayı 10 min nəfərdən az olan Nauru və Tuvalu)[7] istisna olmaqla, bütün dövlətlərdə ümumi məhkəmələrin, çox vaxt isə həm də xüsusi məhkəmələrin bir neçə müxtəlif həlqələri vardır. Ümumi səlahiyyətli məhkəmələr işlərə birinci instansiya qaydasında baxır. Əksər ölkələrdə ikinci instansiya

[5] Veniamin Yevgeneviç Çirkin. Xarici ölkələrin Konstitusiya hüququ, s. 391 (Bakı, 2000)

[6] Onlar kollektiv formada əməlin baş verib-verməməsi, təqsirləndirilən şəxsin (mülki prosesdə cavabdehin) onu törədib-törətməməsi, onun həqiqətən təqsirli olub-olmaması barədə suala cavab verirlər. Bəzən hakim mərhəmətə dair sualda qoyur.

[7] Çirkin, s. 392

məhkəmələrinə xüsusi apellyasiya məhkəmələri və ya yüksək məhkəmələr aiddir (totalitar sosializm ölkələrində belə həlqə yoxdur). Bu məhkəmələrə birinci instansiya məhkəməsinin qərarlarından şikayət etmək olar. Sonuncu həlqə isə kassasiya məhkəmələridir. Onlar yalnız peşəkar hakimlərdən ibarət tərkibdə iclaslar keçirir və faktları və sübutları araşdırmadan yalnız məhkəmə prosesində (bəzən həm də məhkəməyə qədər məsələn, ibtidai istintaqın gedişində) qanunlara riayət edilməsi baxımından işi yoxlayırlar.

**C. Məhkəmə hakimiyyətinin sistemi.**

**Məhkəmə hakimiyyətinin sistemi** dedikdə, öz səlahiyyətlərinə və qarşısında qoyulmuş vəzifələrə və məqsədlərə uyğun olaraq qurulmuş bütün məhkəmələrin toplusu başa düşülür.[8]

Azərbaycan Respublikasının Konstitusiyasının 125-132-ci maddələrində məhkəmə sistemində yuxarı məhkəmələrin və bununla da digər bütün məhkəmələrin yeri müəyyən edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsində Konstitusiya Məhkəməsinin statusu, vəzifələri və məhkəmə orqanı kimi məqsədi göstərilmişdir ki, o, bütün digər normativ-hüquqi aktların qanuniliyinə nəzarət edir.[9] Digər məhkəmələr bu məhkəmədən asılı olmasa da, onun qərarları bütün digər məhkəmələr üçün mühüm əhəmiyyət kəsb edir və bununla da bütövlükdə məhkəmə təcrübəsinə təsir göstərir. Azərbaycan Respublikasının Ali Məhkəməsi isə bir qədər fərqli mövqe tutur. Ali Məhkəmə kasasiya instansiyası məhkəməsi kimi ədalət mühakiməsini həyata keçirir.

Məhkəmə hakimiyyəti sisteminə daxil olan orqanlar ümumi şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin 2-ci hissəsində öz əksini tapmışdır: "Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Apellyasiya Məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər".[10] Bütün bu məhkəmələri iki bloka bölmək olar: **birinci bloka** konstitusiya nəzarətini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, **ikinci bloka** isə ədalət mühakiməsini həyata keçirən bütün digər məhkəmələr daxildir. Ədalət mühakiməsini həyata keçirən məhkəmələrin sistemi "Məhkəmələr və hakimlər haqqında" qanunun 19-cu maddəsində öz əksini tapmışdır.[11]

Azərbaycan Respublikasında ədalət mühakiməsini Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan aşağıdakı məhkəmələr həyata keçirirlər:

1. rayon (şəhər) məhkəmələri;
2. ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi;
3. ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi;
4. hərbi məhkəmələr;
5. ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi;
6. yerli iqtisad məhkəmələri;
7. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;
8. Apellyasiya məhkəmələri;
9. Azərbaycan Respublikasının Ali Məhkəməsi;

Bütün bu məhkəmələr müəyyən məhkəmə instansiyalarına[12] bölünürlər. Məhkəmə instansiyası dedikdə, məhkəmə işlərinə baxılması ilə əlaqədar bu və ya digər məhkəmə funksiyalarını yerinə yetirən məhkəmə və ya onun struktur bölməsi başa düşülür. Məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır.

---

[8] AR DİN Polis Akademiyası, Konstitusiya hüququ, Mövzu 10 "Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin Konstitusiya əsasları"

[9] Azərbaycan Respublikasının Konstitusiyası, maddə 125-132, (Bakı, 2016).

[10] AR Konstitusiyası, maddə 125

[11] "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunu, 19-cu maddə, (Bakı, 1997)

[12] "İnstansiya" sözünün mənası latınca "mərhələ, dərəcə" deməkdir.

AR Konstitusiya Məhkəməsinin məhkəmə hakimiyyətindəki yeri barəsində isə məqalənin davamında daha geniş bəhs edəcəyik.

Nəticə olaraq məhkəmə hakimiyyəti müxtəlif məhkəmə orqanlarından təşkil olunur. Lakin məhkəmə hakimiyyətini bilavasitə həyata keçirənlər məhkəmələr deyil, hakimlərdir. Məhkəmə hakimiyyətinin funksiyaları məhz hakimlərin işində təzahür edir və onlar da məhkəmə hakimiyyətini realizə edir. Azərbaycan Respublikasının Konstitusiyasına görə, məhkəmə hakimiyyətinə iki qrup orqanlar daxildir. Buraya bilavasitə məhkəmələrin özləri və prokurorluq aiddir. Prokurorluğun məhkəmə hakimiyyətində yeri məsələsi mövzumuzdan kənar olduğu üçün biz burada ona daha ətraflı toxunmadıq. Prokurorluğun işi məhkəmə hakimiyyəti ilə birbaşa bağlı deyil. Konstitusiyanın 133-cü maddəsinə görə, prokurorluq qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.[13]

## II. Konstitusiya məhkəməsi

Səlahiyyətlərin münaqişəsi əsasən konstitusiya və hüquqi ziddiyyətdir, onun həlli demokratik və hüquqi dövlət daxilində konstitusiya ədaləti olan xüsusi hüquqi mexanizmin zəruriliyini tələb edir. Mərkəzi orqanlar və bölgələr arasında mübahisələrdə hakim rolunda olan konstitusiya ədalət mühakiməsi Konstitusiyanın ərazi aliliyini və onunla müəyyən edilmiş hakimiyyətlərin şaquli bölgüsü prinsipini qorumaq, habelə tarazlığı qorumaq üçün istifadə olunur.[14]

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsində Konstitusiya Məhkəməsinin səlahiyyətləri əks olunub. Lakin Əsas Qanun qəbul edilən zaman Konstitusiya Məhkəməsi yaranmamışdı, ona görə də Konstitusiyanın keçid müddəalarında Konstitusiya Məhkəməsi haqqında qanunun qəbul edilməsi və Konstitusiya Məhkəməsinin yaradılması haqqında göstərilirdi.

Konstitusiya Məhkəməsi haqqında ilk dəfə 21 oktyabr 1997-ci il tarixdə qanun qəbul edilmiş, Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi isə 18 iyul 1998-ci il tarixli Prezident Fərmanı ilə müəyyən edilmişdir.[15]

Hüquqi dövlət quruculuğunda gedən islahatlar bir neçə dəfə Konstitusiya Məhkəməsi haqqında Qanuna əlavələrin edilməsi ilə nəticələndi. Beynəlxalq qanunvericiliyin və beynəlxalq təcrübənin, eləcə də, Azərbaycan Respublikasının yeni qanunvericilik aktlarını özündə əks etdirmək məqsədi ilə 23 dekabr 2003-cü ildə Konstitusiya Məhkəməsi haqqında yeni Qanun qəbul edildi. [16]

Konstitusiya ədalət mühakiməsi Konstitusiya nəzarətinin yüksək formasıdır ki, bu da Konstitusiya Məhkəməsi vasitəsilə həyata keçirilir. Konstitusiya ədalət mühakiməsinin mahiyyətini tam aydınlaşdırmaq üçün Konstitusiya Məhkəməsinin təbiəti və dövlət hakimiyyəti mexanizmində onun yeri üzərində ətraflı dayanmaq zəruridir. Konstitusiya Məhkəməsi Konstitusiyanın aliliyini və düzünə qüvvəsini dövlətin bütün ərazisində və hüququn bütün subyektlərinə münasibətdə təmin edir. Konstitusiya Məhkəməsi geniş səlahiyyətlərə malikdir və bu səlahiyyətlər vasitəsilə o, qanunvericilik sistemini tam nəzarətdə saxlayır. Konstitusiya nəzarətinə Azərbaycan Respublikasında yalnız normativ-hüquqi aktlar aiddir.

---

[13] AR Konstitusiyası, maddə 133

[14] Constitutional courts and European integration, The resolution of conflicts between the central State and entities with legislative power by the Constitutional Court - Science and technique of democracy No. 35, s. 105

[15] "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli Fərmanı

[16] "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, (Bakı, 2003)

Beləliklə, Konstitusiya nəzarətinin həyata keçirilməsi yolu ilə, hər şeydən əvvəl, mahiyyətinə görə Konstitusiyaya zidd olan qanunları, digər normativ aktları, onların ayrıayrı müddəalarını ləğv etməklə, konkret işlərin həllində Konstitusiya normalarını təfsir etməklə və hüququn bütün subyektləri üçün məcburi olan Konstitusiyanın rəsmi təsfirini verməklə norma yaratma (qanunvericilik) sahəsində onların fəaliyyətinə xeyli təsir göstərir. Konstitusiya Məhkəməsi cəmiyyətdə və dövlətdə sabitliyin başlıca amilidir.

### A. Konstitusiya Nəzarəti və dövlət hüquq mexanizmində onun yeri.

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğunun müasir tendensiyalarından çıxış edərək, ölkəmizin tarixində ilk dəfə olaraq konstitusiya nəzarəti funksiyanı həyata keçirən Konstitusiya Məhkəməsini təsis etmiş və bu institutun dövlət hakimiyyəti sistemində rolu və yeri müəyyənləşdirilmişdir. Konstitusiya nəzarəti də bu istiqamətlər arasında mühüm yer tutur və o, Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

***Konstitusiya nəzarəti*** - Azərbaycan Respublikasında dövlət hakimiyyətinin bölünməsi sisteminin mühüm elementidir. Konstitusiya nəzarəti Konstitusiya müddəalarının aliliyini təmin edən bir vasitə olaraq demokratik dövlətin əlaməti kimi qiymətləndirilir. Onun əsası bu sistemi müəyyən edən AR Konstitusiyasıdır (maddə 7). Praktiki olaraq o, konstitusiya adlandırılan qanunların təzahür etdiyi yerdə və vaxtda yaranır.[17]

Konstitusiya nəzarəti dövlət-hüquq mexanizimində Konstitusiya quruluşunun əsaslarının, əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, Konstitusiyanın göstərişlərinin bütün Azərbaycan ərazisində aliliyinin və birbaşa qüvvəsinin təmini üçün aparıcı yer tutur.

Konstitusiya nəzarəti bütün ölkələrdə bir neçə orqan tərəfindən həyata keçirilir. Bu orqanlardan hər biri bu sahədə müəyyən səlahiyyətlərə malik olur. Konstitusiya nəzarətini həyata keçirən bütün orqanlar sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir, bu da öz növbəsində hüquqi, demokratik dövlətin normal funksiyalaşmasının vacib şərti olmaqla, konstitusiyanın effektiv və hərtərəfli hüquqi müdafiəsini təmin edir. Beləliklə, hər bir ölkədə funksiyaları və səlahiyyətləri, qarşılıqlı əlaqələri konstitusiya və digər qanunlarla tənzim edilən konstitusiya orqanlarının sistemi fəaliyyət göstərir.

Dünya təcrübəsində konstitusiya nəzarətinin həyata keçirilməsinin bir neçə üsulu mövcuddur. Bu, ilk növbədə, ümumi yurisdiksiyalı məhkəmələrin həyata keçirdiyi konstitusiya ədalət mühakiməsidir (ABŞ, Latın Amerikası ölkələri, Skandinaviya ölkələri, Britaniya dominionları, Yaponiya). Bu növ konstitusiya nəzarəti konstitusiya ədalət mühakiməsinin amerikan sistemi adını almışdır. Dünya konstitusiya prosesinin ilk mərhələsində bu model uzun müddət yeganə olmuşdur. İkinci üsul - konstitusiya ədalət mühakiməsinin ixtisaslaşdırılmış məhkəmələr, çox vaxt konstitusiya məhkəmələri adlandırılan qurumlar tərəfindən həyata keçirilməsidir. Bu model 1920-ci ildə Avstriyada yaranmış, sonra isə qonşu Çexoslovakiyaya yayılmışdır, hazırda o, praktiki olaraq, Skandinaviya ölkələri və Fransa istisna olmaqla, bütün Avropa ölkələrində fəaliyyət göstərir. Konstitusiya nəzarətinin bu sistemi Avropa nəzarəti adlandırılır. Fikrimizcə, mənşə yerinə görə onu Avstriya nəzarəti də adlandırmaq olardı, çünki bu sistemin özü nəzəri cəhətdən görkəmli Avstriya hüquqşünası Q.Kelzenlə (1881-1973) birlikdə K.Eyzeman tərəfindən

[17] AR Konstitusiyası, maddə 7

işlənilib hazırlanmışdır.[18] Konstitusiya nəzarətinin üçüncü üsulu az yayılmış hesab olunur və "kvazi məhkəmə" adlandırılan orqanlar vasitəsilə həyata keçirilir. Belə orqana nümunə, məsələn, Fransada Konstitusiya Şurasını göstərmək olar. İkinci və üçüncü üsulları Konstitusiya nəzarətinin Avropa sistemi adlandırılmışdır.

Əvvəla, onu qeyd etmək lazımdır ki, Konstitusiya nəzarəti orqanının qanunların Konstitusiyaya "zidd olmaması"na nəzarət etməsi daha məqsədəuyğun olar.[19] Çünki "Konstitusiyaya uyğunluq" dedikdə qanunvericiliyin fəaliyyət sferası bir növ məhdudlaşır. Belə ki, bu, azadlıq prinsipinin müasir dövrümüzdəki təzahürü[20] ilə üst-üstə düşmür. Ictimai münasibətlər çox mürəkkəb olduğundan və intensiv şəkildə inkişaf etdiyindən qəbul edilən qanunların Konstitusiya ilə ziddiyyət təşkil etməməsinə nəzarət daha məqsədəmüvafiqdir. Konstitusiyaya uyğunluq yoxlanıldıqda tənzimlənmə predmetinin Konstitusiyada təsbit olunmuş olması lazımdır. Yəni, "uyğunluq" termini o halda işlədilməlidir ki, hər hansı institutun barəsində onu inkişaf etdirən aşağı səviyyəli qanunvericilik aktları qəbul edilmiş olduğu halda həmin institutu birbaşa tənzimləyən normalar Konstitusiyada təsbit edilmiş olsun. Konstitusiya isə ən ümumi normalardan ibarət olduğundan əksəriyyət hallarda yoxlanan aktın tənzimlənmə predmeti Konstitusiyada xatırlanmır. "Konstitusiyaya uyğunluq" məsələsinin isə konstitusiya nəzarətini həyata keçirən orqanların təfsir etmə fəaliyyətində nəzərə alınması daha məqsədəuyğundur.

Hüquq ədəbiyyatında Konstitusiya nəzarətini əsaslandırmaq üçün 3 əsas nəzəriyyə mövcuddur:

1) ***orqanik nəzəriyyə***; 2) ***institusional nəzəriyyə***; 3) ***təbii hüquq və ya ictimai müqavilə nəzəriyyəsi***. ***Orqanik nəzəriyyəyə*** əsasən Konstitusiya müəssisələr hakimiyyətinin aktı olduğu səbəbindən müəssisələr hakimiyyətinə, yəni indiki qanunverici hakimiyyətə nisbətən aşağı səviyyəli hakimiyyətə malik olan orqanların aktları müəssisələr hakimiyyətinin aktına zidd olmamalıdır. ***İnstitusional nəzəriyyə*** isə bunu əsas götürür ki, Konstitusiya hakimiyyət orqanları üçün "oyun qaydaları"nı müəyyən edir. Bu orqanlardan heç biri digərinin səlahiyyətlərinə qəsd etməməlidir. Federativ dövlətlərdən ötrü isə mərkəzin və federasiya subyektlərinin səlahiyyət dairələrinin həddinə riayət edilməsi xüsusilə vacibdir. O ki qaldı ***təbii hüquq və ya ictimai müqavilə nəzəriyyəsinə***, onun nümayəndələri belə hesab edir ki, Konstitusiya idarə edənlər və idarə edilənlər üçün, ilk növbədə, insan və vətəndaş hüquqları üçün zəmanət müəyyən edir və konstitusiya nəzarəti orqanı da həmin qaydalara riayət olunmasına, onların düzgün icra edilməsinə nəzarət etməlidir.[21] Bu nəzəriyyələrin hər birinin müddəaları doğru hesab edilir. Belə ki, onlar müəyyən mənada bir-birini tamamlayır. Orqanik nəzəriyyənin əsas ideyası konstitusiya nəzarətinin normativ sistemin iyerarxik quruluşu ilə şərtlənməsini ifadə edir, hansı ki Konstitusiyanın 148-ci maddəsində bu, əks olunub. Lakin o dövrün ideologiyası əsasında formalaşmış bu nəzəriyyənin indiki vəziyyətdə şərhi "müəssisələr hakimiyyəti"nin yox, xalqın qəbul etdiyi Konstitusiya aktının üstün qüvvəsi ilə əlaqələndirilməlidir. İnstitusional nəzəriyyəyə gəldikdə isə o, mahiyyət etibarilə hakimiyyət bölgüsünün effektiv nəticəsini təmin etməkdə Konstitusya nəzarətinin əhəmiyyətini vurğulayır. Təbii hüquq nəzəriyyəsinin müddəaları isə AR Konstitusiyasının 12-ci maddəsində təsbit edilmiş dövlətin ali məqsədindən biri olan insan və vətəndaşların hüquq və

[18] AR DİN Polis Akademiyası, Hüquq-mühafizə orqanları, Mövzu 6 "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi", s. 4 (Bakı, 2021)
[19] Boris Aleksandroviç Straşun. Xarici ölkələrin konstitusiya (dövlət) hüququ, s. 123 (Bakı, 2007)
[20] XVII əsrə qədər azdlıq prinsipinin mahiyyəti "qanunla icazə verilməyən hər şey qadağan edilir" şəklində anlaşılırdı. Lakin müasir dövrdə bu prinsip "qanunla qadağan edilməyən hər şeyə icazə verilir" mahiyyətində qəbul edilir.
[21] Straşun, s. 124

azadlıqlarının təmin edilməsinin əsas zəmanətçisi qismində konstitusiya nəzarəti orqanının çıxış etdiyini göstərir. Bütün bunlar Konstitusiya nəzarətinin mühüm əhəmiyyətini təsdiq edir.

**B. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hüquqi statusu**

Konstitusiyanın 7-ci maddəsində təsbit olunmuş hakimiyyətlərin bölünməsi prinsipinə görə Konstitusiya Məhkəməsi normayaradıcı, yəni hər hansı hüquq münasibətlərinin tənzimlənməsinə dair normativ hüquqi akt qəbul edən, o cümlədən hər hansı normativ hüquqi akta əlavə və dəyişikliklərin edilməsi təşəbbüsünə malik olan orqan deyil, səlahiyyətli subyektlərin sorğu və müraciətləri, fərdi şikayətlər əsasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən qəbul olunmuş aktlar üzərində konstitusiya nəzarətini həyata keçirən ali konstitusiya ədalət mühakiməsi orqanıdır.[22]

Məlum olduğu kimi, müasir konstitusionalizmin vətəni olan ABŞ Ali Məhkəməsinin özü kostitusiya nəzarətini həyata keçirir. Lakin nəzərə almaq lazımdır ki, ABŞ ümumi hüquq sisteminə daxil olan dövlətdir və belə ölkələrdə məhkəmə hakimiyyətinin səlahiyyətlərinin dairəsi olduqca genişdir. Üstəlik, konstitusiya nəzarətinin amerikan sistemində o, adi mülki, cinayət, inzibati və digər "konstitusiyaya aid olmayan" işləri həll edən ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirilir.[23] Kontinental hüquq sisteminə daxil olan dövlətlər üçün isə bu xüsusiyyət xarakterik deyil. Elə məhz bu səbəbdən də sivil hüquq ölkələrində konstitusiya nəzarətini ali məhkəmə həyata keçirmir. Azərbaycan Respublikasında da Ali Məhkəməyə həmin səlahiyyət müvəqqəti olaraq zərurətdən irəli gəldiyi üçün verilmişdir. Bu səbəbdən Konstitusiya Məhkəməsinin məhkəmə hakimiyyəti orqanı olması ziddiyyətli fikirlərlə qarşılaşır. Bu orqanın "məhkəmə" adlandırılmasına bir çox dövlətin təcrübəsində rast gəlinir. Buna baxmayaraq heç də bu dövlətlərin hamısı onu məhkəmə hakimiyyətinə aid etmirlər. Məsələn, İtaliya Konstitusiya nəzəriyyəsində Konstitusiya Məhkəməsinin digər hakimiyyət qollarından ayrıca fəaliyyət göstərdiyi vurğulanır.[24] Həmçinin İtaliya Konstitusiyasında digər hakimiyyət qolları 5-ci bölmədə əks etdirildiyi halda, Konstitusiya Məhkəməsindən 6-cı bölmədə bəhs olunur. Bənzər hal Bolqarıstan Konstitusiyasında da əks olunub. Burada Konstitusiya Məhkəməsinə xüsusi fəsil ayrılmasıyla bərabər, ölkənin Konstitusiya Məhkəməsi haqqında qanununda qeyd edilir ki, Konstitusiya Məhkəməsi qanunverici, icra və məhkəmə hakimiyyətindən müstəqildir. Üstəlik, Konstitusiya Məhkəməsi özünün 16 dekabr 2013-cü il 18 saylı qərarında qeyd edib ki, o, məhkəmə sisteminin tərkib hissəsi deyil, üç hakimiyyətdən kənarda dayanmaqla öz səlahiyyətlərini müstəqil olaraq bu hakimiyyət qolları ilə bərabər həyata keçirir.

Əslinə qalsa, "Konstitusiya Məhkəməsi haqqında" AR Qanununun 5.1-ci maddəsində onun müstəqilliyi prinsipi belə açıqlanır: "Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir".[25] Bu, çox mütərəqqi norma hesab edilməlidir. Lakin AR Konstitusiyasının 125-ci maddəsinin II bəndində Konstitusiya Məhkəməsinin məhkəmə hakimiyyətinə aid olması qeyd edilir.[26] Həmçinin onun hüquqi statusunu tənzimləyən norma da digər məhkəmə hakimiyyəti orqanları ilə eyni fəsil daxilində təsbit olunub.

Qeyd etdiklərimizdən əlavə AR Konstitusiyasının 130-cu maddəsinin II bəndinə görə AR Konstitusiya Məhkəməsinin hakimlərini AR Prezidentinin təqdimatı əsasında AR Milli

---

[22] "Əmək pensiyaları haqqında" AzərbaycanRespublikası Qanununun 8.1 və 8.3-cü maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 01 dekabr 2010-cu il tarixli Qərar

[23] Midhəd Qəfərov və Hikmət Eyvazov. Hüquq mühafizə orqanları, s. 139 (Bakı, 2012)

[24] Marilisa D'Amico. Constitutional law of Italy, s. 209 (Kluwer Law International BV. The Netherlands, 2013)

[25] "Konstitusiya Məhkəməsi haqqında" AR Qanunu, maddə 5

[26] AR Konstitusiyası, maddə 125

Məclisi təyin edir. Burada hakimiyyət qollarının hər biri iştirak etsə də, heç biri müstəqil şəkildə seçmir.[27] Hətta bu prosedur Ali Məhkəmə hakimlərinin seçilməsi qaydası ilə üst-üstə düşür. Bəli, bu cəhət onu məhz məhkəmə hakimiyyəti orqanı kimi dəyərləndirməyə əsas verə bilər.

Lakin Konstitusiya Məhkəməsinin məhkəmə hakimiyyəti qoluna aid olmamasını əsaslandıran belə bir arqument də irəli sürmək olar ki, Konstitusiya Məhkəməsinin səlahiyyət dairəsi heç də digər məhkəmə hakimiyyəti orqanlarının səlahiyyətlərinin xarakteri ilə uzlaşmır. Sadəcə demək mümkündür ki, "bu institut məhkəmə hakimiyyəti ilə hibrid təşkil edir". Hətta 1995-ci ildə Çexiya Konstitusiya Məhkəməsi müvafiq məsələyə baxaraq müəyyən etmişdir ki, Konstitusiya Məhkəməsi məhkəmə sistemi orqanı deyildir və onun xaricində fəaliyyət göstərir.[28]

Bir sıra müəlliflər isə Konstitusiya Məhkəməsinin digər üç hakimiyyət qolundan ayrılmasını məqsədəuyğun saymırlar. Onların fikrincə, belə olan halda Konstitusiya Məhkəməsi bu hakimiyyət orqanlarının fövqündə durur. Bu zaman isə hakimiyyət bölgüsü prinsipinin əhəmiyyəti qalmır. Lakin sözügedən məsələdə Konstitusiya Məhkəməsinin üstün hakimiyyətə malik olması dəstəklənmir. Sadəcə onun fərqli xarakterinin konstitusion hüquqi statusunda əks olunması daha məqsədəuyğun hesab edilir.

## III. Qanunyaradıcı və hüquq tətbiqedici praktikada AR Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi.

Qanunvericilik aktlarında "hüquqi mövqe"nin anlayışı verilmir. "Hüquqi mövqe"nin qanunvericilik qaydasında tənzimlənməsinə zərurətdə yoxdur. Əks halda, bu, müvafiq qurumun həmin sahədəki fəaliyyət azadlığını məhdudlaşdırmağa gətirib çıxara bilər. İnsan hüquq və azadlıqlarının tənzimlənməsində qanunverici, bir qayda olaraq, bütün prosesləri əhatə edə bilmədiyi üçün konstitusiya nəzarəti qurumu bu sahədə əhəmiyyətli rol oynayır. Xüsusən də, konstitusiya məhkəmələrinin konstitusiyanın şərhində nəzərə almalı olduğu siyasi, iqtisadi, sosial faktorlar qanunvericinin iradəsinin istiqaməti, konstitusiyanın təyinatı, dövlətin əsas məqsədi və s. məsələlər konstitusiya məhkəməsinin hüquqi mövqeyinə təsir edən amillərdir ki, bunların da dairəsini müəyyən etmək tam mənada mümkün deyil. Hüquqi mövqenin formalaşmasında konstitusiya məhkəməsi bir halda ümumi dövlət maraqlarından, digər halda yerli xarakterli maraqlardan, başqa bir halda isə sırf fərdi hüquqlar kontekstindən çıxış edə bilər.

Hüquq doktrinasında konstitusiya məhkəmələrinin hüquqi mövqelərinə verilən anlayışlarda ifadə edilmiş fikirlər diqqəti cəlb edir. Əksər müəlliflər hesab edirlər ki, hüquqi mövqelər konstitusiyanın şərh edilməsi zamanı qanunların və normativ-hüquqi aktların konstitusion mənasının aşkar edilməsi ilə bağlı qəbul edilən məhkəmənin yekun qərarının hüquqi əsasını təşkil edən ümumi xarakterli nəticələr, göstərişlər, münasibətdir.

Konstitusiya Məhkəməsi hakimlərinin müvafiq məsələ ilə bağlı elmi-hüquqi biliklərinin, qanunvericiliyi qiymətləndirmə potensialının nəticəsi kimi təzahür etməsi də hüquqi mövqelərə hüquq doktrinası xüsusiyyəti verir. Hüquqi mövqenin xarakteri onun əsasında formalaşdırıldığı dəyərlər baxımından qiymətləndirilmədir. Məsələn, konkret, ümumqəbuledilmiş anlayışı olan hüquqlar (ədalətli məhkəmə baxışı) üzrə hüquqi mövqe presedent xarakterində qəbul edilməlidirsə, formalaşmaqda olan hüquqlar ("layaqətli həyat hüququ"), prosedur məsələlər ilə bağlı hüquqi mövqe "kristallaşdırılmış hüququ" əks

[27] AR Konstitusiyası, maddə 130
[28] Constitutional courts and European integration, Science and technique of democracy № 36, s. 7 (2005)

etdirməyəcək və "presedent əhəmiyyəti" kəsb etməyəcək.[29] Məsələn, prosedur məsələlərlə bağlı qeyd edilir ki, Konstitusiya Məhkəməsinin qərardadı mübahisənin mahiyyəti üzrə məhkəmə qərarı deyildir, buna görə də, orada göstərilən hüquqi mövqelər hüququn mənbəyi kimi nəzərdən keçirilə bilməz və konkret mübahisələri həll edən məhkəmələr üçün məcburi xarakter daşımır. Lakin başqa bir halda ifadə edilən hüquqi iradədən asılı olaraq qərarda özü də mənbə kimi çıxış edə bilər.

Qloballaşma ilə əlaqədar olaraq hüquq sistemlərinin yaxınlaşması hüququn mənbələri məsələsində də özünü büruzə verir. Belə ki, artıq anglo-sakson hüquq sistemli dövlətlərdə qanunların rolunun artdığını müşahidə etmək mümkündürsə, roman-german hüquq sistemində qanunun prioritetliyi saxlanmaqla məhkəmə normayaradıcılığı təşəkkül tapmaqdadır. Məhkəmə praktikasının hüququn mənbəyi olub-olmaması ilə bağlı məsələ roman-german hüquq sisteminə aid olan müxtəlif ölkələrin doktrinasında, qanunvericiliyində və praktikasında fərqli şəkildə həll edilmişdir. Bu ölkələrin bir qrupunda (İspaniyada, İsveçrədə və s.) onun presedent kimi rolu rəsmi şəkildə tanınır və hətta qanunvericilikdə təsbit edilir. Digər qrup ölkələrdə (Yunanıstan, İtaliya, Niderland, Almaniya və s.) isə məhkəmələrin hüquq yaradıcılığı fəaliyyəti formal (rəsmi) şəkildə qəbul edilməsə də, reallıqda mövcuddur və yüksək məhkəmə instansiyaları hüququn inkişafına təsir göstərirlər. Digər məhkəmələr kimi, Konstitusiya Məhkəməsinin hüquq yaradıcılığı rolunun inkar edilməsi ona əsaslanır ki, məhkəmə hüquq yaradıcılığının qəbul edilməsi hakimiyyətlərin bölünməsi prinsipinə zidd olmaqla məhkəmə və qanunvericilik hakimiyyətinin funksiyalarının, onların səlahiyyətlərinin və fəaliyyət sferalarının qarışmasına gətirib çıxarır.

Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilən "normayaradıcılığında" bilavasitə tənzimetmə məqsədi ikinci plana keçdiyindən ön planda Konstitusiyanın aliliyinin, yüksək hüquqi qüvvəsinin təmin təmin edilməsi dayanır. Hakimiyyətlərin bölgüsü nəzəriyyəsinə görə məhkəmə hüquqtətbiqetmə orqanı olduğundan yeni hüquq norması yarada bilməz.

Hüquq ədəbiyyatında qanunverici hakimiyyətin səlahiyyətində olan məsələnin məhkəmə hakimiyyəti orqanı tərəfindən həyata keçirilməsinin parlamentin suverenliyinə xələl gətirdiyi düşünülür. Lakin Hans Kelzen bu məsələyə dair iki arqument gətirir: 1) dövlət orqanının suverenliyindən danışmaq düzgün deyil, çünki suverenlik ancaq dövlətə xasdır; 2) Konstitusiya Məhkəməsinin ayrıca bir hakimiyyət qolu hesab edilməsi məqsədəuyğun deyil. Burada yalnız qanunvericilik fəaliyyəti istisnalıq təşkil edir. Belə ki, Konstitusiyaya uyğun olmayan və ya zidd gələn normaları müəyyən edib onların tətbiqini məhdudlaşdıraraq o, bir növ "neqativ qanunverici" kimi çıxış edir.[30] Əslində hakimiyyət qolları öz funksiyalarını həyata keçirərkən çəkindirmə və tarazlaşdırma mexanizmi əsasında fəaliyyət göstərdiklərindən onların bir-birinin imkanlarını ağlabatan həddə qədər məhdudlaşdırması müəyyən dərəcədə qəbul edilə bilər. Lakin bir-birinin fəaliyyət sferasına əsaslı dərəcədə təsir göstərmələri o qədər də uğurlu hesab edilməməlidir.

## IV. Konstitusiya Məhkəməsinin qərarlarında formalaşdırdığı hüquqi mövqelər və konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin təkmilləşdirilməsi.

Artıq son dönəmlərdə Konstitusiya Məhkəməsinin də qərarları mənbə kimi qəbul edilir. Məhkəmə qərarının mənbə qismində çıxış etməsi isə roman-german hüquq sistemi ölkələri üçün o qədər də xarakterik deyil.

Belə ki, Konstitusiya Məhkəməsi hər zaman sorğu əsasında baxdığı normanı təfsir edərkən ziddiyyət və ya çatışmazlıq gördükdə bəzi hallarda ona elə formada təfsir verir ki,

[29] Fərhad Abdullayev. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri, s. 66 (Bakı, 2013)

[30] Hans Kelsen. General theory of law and state, s. 146-149 (1st edn. Cambridge. Mas., Harvard U., 1945)

artıq orada yeni və ya dəyişdirilmiş hüquq normaları da öz əksini tapır. Belə hallar isə artıq Konstitusiya ədliyyəsinin yalnızca "neqativ qanunverici" kimi çıxış etdiyini söyləməyə mane olur. Çoxları bu arqumenti qəbul etməsə də, Amerika hüquqşünası F. Lourens bildirir ki, "yalnız ən sadəlövh insanlar inanırlar ki, Ali Məhkəmə yalnız hüquq normasını təfsir edir, yəni onu yazan insanların nə demək istədiklərini tədqiq edir. Məhkəmə sadə təfsirdən uzağa gedərək Konstitusiya doktrinasını yaradır və genişləndirir". [31] Məsələn, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.8-ci maddəsinin (Mənzil, bağ, qaraj və ya başqa kooperativin üzvü, pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə həmin əmlaka mülkiyyət hüququ əldə edirlər) şərh edilməsinə dair" 25 oktyabr 2010-cu il tarixli Qərarında qeyd olunur ki, "kooperativin üzvü və pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə həmin əmlaka sahiblik və istifadə etmək hüququnu, Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydə alındıqdan sonra isə sərəncam vermək hüququnu əldə edirlər". [32] Burada Konstitusiya Məhkəməsi sözügedən normanı təfsir etməkdən daha çox dəyişdirmiş, hətta deyə bilərik ki, yenilik gətirmişdir. AR Konstitusiyasının 29-cu maddəsinin III bəndində mülkiyyət hüququnun sahiblik, istifadə və sərəncam haqlarından ibarət olduğu göstərilir. Bu səbəbdən Konstitusiya Məhkəməsinin mülkiyyət hüququnun əsasına təsir edən belə bir qərarını sadəcə "şərh" olaraq qiymətləndirmək ağlabatan deyil. Hətta bu qərarı bir çoxları ədalətə yaxın hesab etsələr belə, bu onun yeni norma yaratmamalı olmasını istisna etmir. Həmçinin mülki hüquq nəzəriyyəsində də "məhdud mülkiyyət hüququ" anlayışına rast gəlinmir.

Bundan əlavə Fransada konstitusiya nəzarətini həyata keçirən orqan olan Konstitusiya Şurasının qanunvericiliyin daha təkmil olmasına effektli təsir göstərə bilməsinin təmin olunması üçün onun fəaliyyət mexanizmi fərqli qaydada müəyyən olunmuşdur. Bu orqan ədalətliliyin daha müntəzəm təmin olunması məqsədilə elə normayaradıcılığı mərhələsində nəzarət funksiyasını həyata keçirir. Bu əlamət "kvazi məhkəmələr"ə xasdır və onlar təkcə növbəti nəzarəti deyil, həmçinin ilkin nəzarəti də həyata keçirir.[33] Belə ki, Şura hələ qanun layihəsi qəbul edilməzdən əvvəl onun Konstitusiyada göstərilən prinsiplərlə, normalarla ziddiyyət təşkil edib-etməməsini yoxlayır və qanun qəbul edildikdən sonra bu qanundan irəli gələ biləcək ədalətsizliyin qarşısının alınması təmin olunur. Lakin nəzərə almaq lazımdır ki, belə şəkildə həyata keçirilən prosedur olduqca böyük çətinlik törədə bilir. Belə ki, qəbul edilən qanunun bir müddət sonra cəmiyyətə təsirinin nə dərəcədə və hansı aspektdə olacağını əvvəldən təxmin etmək bir çox hallarda mümkün və səmərəli şəkildə olmur. Yəni ictimai münasibətlər olduqca mürəkkəb və dinamik dəyişmə, inkişaf etmə sürətinə malik olduğundan onun sonrakı dövrün tələbinə uyğunlaşdırmağın əhəmiyyəti vurğulanmalıdır. Həm də qanunun cəmiyyətdə nə formada təzahür tapacağını əvvəlcədən güman etməklə onu əyani şəkildə müşahidə etmək arasında böyük fərq var. Bir sözlə, ikinci halda həyata keçirilən tənzimləmə daha çox faydalı ola bilir. Bu baxımdan konstitusiya nəzarətinin Azərbaycanda üstünlük verilmiş formasını dövrün tələbinə uyğun hesab etmək olar.

## *Nəticə*

Hüquqi dövlət üçün böyük əhəmiyyət kəsb edən konstitusiya nəzarətinin siyasi deyil hüquqi xarakterli orqan tərəfindən həyata keçirilməsi uğurlu bir yanaşmadır. Lakin,

[31] Friedman Meir Lawrence. American law, s. 154 (Yale University Press, 2004)
[32] Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.8-ci maddəsinin (Mənzil, bağ, qaraj və ya başqa kooperativin üzvü, pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə həmin əmlaka mülkiyyət hüququ əldə edirlər) şərh edilməsinə dair" 25 oktyabr 2010-cu il tarixli Qərarı
[33] Qəfərov və Eyvazov, s. 140

konstitusiya nəzarəti orqanı digər hakimiyyət qolları arasında balanslaşdırılmış nizamın yaradılmasını təmin etdiyindən konstitusion hüquqi statusunun fərqləndirilməsi zəruridir.

Belə ki, AR Konstitusiyasının 96-cı maddəsində qanunvericilik təşəbbüsü hüququna malik olan dövlət orqanları sırasında AR Konstitusiya Məhkəməsinin adı keçmir.[34] Əslində AR Konstitusiya Məhkəməsinin belə bir hüququnun olmaması onun lazım bildiyi halda qanunverici orqandan asılı olmayaraq hər hansı aktı ləğv edə bilmə və təfsir etmə üsulu ilə normaya təsir göstərə bilmə səlahiyyətindən irəli gəlir. Lakin, Konstitusiya Məhkəməsi bunu hər nə qədər də hüquqtətbiqedici orqan üçün etsə də, edilən dəyişikliyin, gətirilən yeniliyin qanunvericilik qaydasında əks olunmaması onun qeyri-təkmilliyinin aradan qalxmasını təmin etmir. Halbuki, belə bir halda Konstitusiya Məhkəməsinin nəinki təşəbbüs, hətta göstərişinin Milli Məclis tərəfindən icra edilməsi ən azından qanunvericiliyin daha sabit olmasına gətirib çıxara bilər. Doğrudur, bir hakimiyyət qolunun digərinə məcburi göstəriş verməsi "hakimiyyətin bölünməsi" prinsipi ilə qətiyyən uzlaşmır. Lakin onu da nəzərə almaq lazımdır ki, Konstitusiya Məhkəməsinin qərarlarında Milli Məclisə müəyyən dəyişikliklərlə bağlı tövsiyələr əks olunsa da, həmin qanunları tətbiq etməli olan məhkəmələr üçün parlamentin bu tövsiyələri müsbət qiymətləndirib-qiymətləndirməməsi əhəmiyyət kəsb etmir. Bu səbəbdən də qanunlardakı yeniliklər və düzəlişlərin belə prosedural qaydası ən azından hakimiyyət qolları arasında səlahiyyət bölgüsünün daha səmərəli olmasını təmin etmiş olar.

UDC 165

*Y.R.Abdulla, S.E.Alieva, M.F.Mammadova*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN: CONSTITUTIONAL CONTRADİCTİONS IN LEGISLATIVE AND LAW ENFORCEMENT PRACTICE

*SUMMARY*

*Key words:* Constitutional Court, law, contradiction, legislation

The article is aimed at evaluating conflicting points in legislative and law-enforcement practice from the perspective of the Constitutional Court. Also, the conditions that necessitated its creation, related theories and their justification in modern times, and the importance of its activity are also searched. Mainly, the question of conflict between the branch of government to which it belongs and the nature of his powers, whether the legal status defined for him in the legislation is suitable or not, points of conflict of his function with the functions performed by other authorities are searched here. In relation to these issues, a comparative analysis was conducted by referring to the experience of foreign countries, and this issue was evaluated in accordance with the requirements of the modern era. Finally, the recommendations considered effective are reflected in the final part of the article.

***Daxil oldu: 21.11.2023-cü il***

[34] AR Konstitusiyası, maddə 96